# FONDUN ISO 9001:2015 STANDARTI ÜZRƏ KEYFİYYƏTƏ DAİR SİYASƏTİ

Qarabağ Dirçəliş Fondu (bundan sonra – Fond) Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsini, habelə görülən işlərlə bağlı ölkə daxilində və ölkə xaricində informasiya təminatını, maarifləndirmə və zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

Fond öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Keyfiyyəti İdarəetmə Sisteminin tətbiq sahəsinə - ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olması; müvafiq sahə üzrə maliyyə dəstəyinin göstərilməsinin idarə edilməsi və nəzarəti; investisiya layihələrinin seçilməsini, idarə edilməsini və həmin layihələrin icrasına nəzarətin həyata keçirilməsi; işğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması və dayanıqlı inkişafı üçün sərmayələrin cəlb olunması, habelə bu istiqamətdə fəaliyyətin effektiv təşkili məqsədilə təbliğat-təşviqat və maarifləndirmə işinin təşkili və təkmilləşdirilməsi daxildir.

Fond Keyfiyyəti İdarəetmə Sistemi üzrə əhatə dairəsinə uyğun olaraq, öz fəaliyyətində aşağıdakı *prinsipləri* rəhbər tutur:

- Fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericilik və müəyyən olunmuş digər tələblərə riayət etmək, mövcud Keyfiyyəti İdarəetmə Sistemini daim təkmilləşdirmək;
- Qanun və işgüzar təcrübəyə uyğun olaraq tələb olunan məlumatı vaxtında müvafiq qurumlara və ictimaiyyətə açıqlamaq;
- Fondda işin təşkili prosesinə effektiv nəzarəti həyata keçirmək və mərkəzləşmiş idarəetməni təmin etmək;
- Fonddun fəaliyyətində maraqlı tərəflərin (stakeholderlər) məmnunluğunu daim yüksək səviyyədə saxlamaq;
- Fondun fəaliyyətini dünya şəffaflıq standartları səviyyəsində həyata keçirməklə ictimaiyyətin etimadını qazanmaq;
- Ətraf mühitin və bütövlükdə cəmiyyətin maraqlarına uyğun şəkildə fəaliyyət göstərmək;
- Yüksək ixtisaslı gənc kadr potensialını təmin etmək və daim təkmilləşdirmək.